# AI | 2D MOTION DİZAYN



#GələcəkBurada

/ code academy



COLORS:



| | | |
|---|---|---|
| #EAFBFD | #F7B358 | #D4ECB5 |
| #5C9ED7 | #F49C30 | #ABCD82 |
| #020076 | #F16E90 | #8FCF4F |
| #67CEF2 | #B71B4E | #80D129 |


**Səməd Səmədov**

2D Motion Dizayn
tələbəsinin final layihəsi




# 2D Motion Dizayn Qlobal Dünyada

2D Motion Dizayn – qrafik elementlərin hərəkətləndirilmiş, yəni animasiya olunmuş formasıdır. Başqa sözlə, onun köməyi ilə qrafik elementlər hərəkətə gətirilir, statik dizayndan dinamik dizayna keçid edilir. 2D Motion Dizayn qrafik dizayn və animasiyanı düzgün yollarla birləşdirərək yaradılan görüntü texnikasıdır. Bu texnika ilə vizual kontentləri canlandırmaq mümkündür.

Artıq insanlar məlumatları oxumaqdansa, zövqlə, cəlbedici formada hazırlanmış animasiyaları izləməyi daha üstün tuturlar. Buna görə də 2D Motion Dizayn son zamanlar aktual sahəyə çevrilib və bir çox sektorda bu sahənin peşəkarlarına ehtiyac duyulur. TV kanalları, filmlər, media şirkətləri, digital marketinq, reklam agentlikləri və digər yaradıcı sahələrdə qarşılaşdığınız hər hansı bir hərəkətli yazı, şəkil və ya qrafik element motion dizaynerlər tərəfindən hazırlanır. **Qlobal statistikalar göstərir ki,**

**2024–2034-cü illər arasında sahədə**

# 5,000

**-dən çox yeni iş imkanının yaranacağı proqnozlaşdırılır.**

**Motion dizayn marketi 2034-cü ilə qədər**

# 280

**milyard dollara çatacaq**

**qlobal aylıq remote iş elanı sayı**

# 700

**-dən çox**

# Hədiyyə axtarışındasınız?

**Fərhad Atakişiyev**
2D Motion Dizayn
tələbəsinin final layihəsi





# 2D Motion Dizayn Code Academy-də

**Tədris proqramımızın**

**85%-i**

**praktiki iş üzərində və qlobal təcrübələrə əsaslanaraq hazır-lanmışdır.**

Əmək bazarında brendlərin sayının artımı ilə onların reklamlarının daha tez və dolğun informasiya ötürməsinə ehtiyac duyulur. Bunun üçün ən effektiv vasitələrdən biri də məhz hərəkətli animasiya hesab olunur.

Məhz buna görə akademiyamız qabaqcıl beynəlxalq təcrübələri nəzərə alaraq 2D Motion Dizayn tədris proqramımızın 85%-ni praktiki iş üzərində qurmuşdur. Tədris müddətində peşəkar instruktorlardan təhsil almaqla animasiyanın sirlərini öyrənərək, statik dizayn dünyasına hərəkət qatacaqsınız.

gross əmək haqqı
**15.600 ₼/il**
Junior Motion Designer

gross əmək haqqı
**30.000 ₼/il**
Middle Motion Designer

gross əmək haqqı
**60.000 ₼/il**
Senior Motion Designer

# Tədris Proqram

## 1 İllustrasiya və statik Süni İntellekt istifadəsi

Bu modul illustrasiyaya həsr olunaraq Adobe Illustrator proqramının interfeysi, menyuları və alətlərinin istifadəsini, həmçinin rəng nəzəriyyəsi və Johannes Itten rəng çarxının tətbiqini əhatə edir. Tək və qradient rənglərlə işləmə, rəng paleti yaratma və rənglərin düzgün istifadəsi öyrədilir. Eyni zamanda bu modula süni intellekt vasitəsilə illustrasiya və real vizualların hazırlanması, eləcə də Adobe Photoshop proqramında işləmə bacarıqları da əlavə olunmuşdur.

## 2 After Effects ilə tanışlıq

Bu modul Adobe After Effects proqramı ilə tanışlığı əhatə edir. Tədris müddətində proqramın interfeysi, əsas transform parametrləri (Position, Scale, Rotation, Opacity), maskalarla işləmə, səhnə (composition) qurmaq və layerlərin Content hissəsinin strukturu və idarə olunması öyrədilir.

## 3 Hərəkətin fizikası və zamanlama

Bu modul Adobe After Effects proqramında Speed Graph mövzusuna həsr olunub. Tədris müddətində sürətin fizikasının məntiqi, elastik (ease, overshoot) və bounce hərəkət prinsipləri izah olunur. Həmçinin animasiyanı daha real və dinamik etmək üçün istifadə olunan bəzi pluginlərlə tanışlıq həyata keçirilir.

## 4 Stilləşdirmə və effektlər (Süni intellekt ilə musiqi)

Bu modul Adobe After Effects proqramında Layer Styles, Blending Mode, Adjustment Layer və Solid ilə işləmə prinsiplərini əhatə edir.
Eyni zamanda daxili effektlərin tətbiqi öyrədilir. Stok resurslardan istifadə qaydaları və digər platformalar üzərindən material seçimi izah olunur. Modul çərçivəsində musiqi və səs effektləri ilə işləmə, həmçinin süni intellekt vasitəsilə musiqi yaradılması mövzularına da yer verilir.

## 5 Text animasiyası

Bu modul mətn animasiyasına həsr olunub. Tədris müddətində text animasiyası prinsipləri, Character panelinin funksiyaları, müxtəlif text reveal üsulları və lettering anlayışı izah edilir, praktik nümunələrlə tətbiq olunur.

## 6 Süni intellekt ilə animasiya və Morphing

Bu modul süni intellekt və morphing animasiyasına həsr olunub. Tədris müddətində AI vasitəsilə sıfırdan animasiya hazırlamaq prinsipləri öyrədilir, həmçinin Kling AI, Sora, Google Veo, Seedance və digər AI alətlərindən istifadə qaydaları izah olunur.
Eyni zamanda morphing animasiyasının məntiqi və "Path to Path" üsulu ilə formaların bir-birinə keçidi praktik şəkildə tətbiq edilir.

## 7 Loqo animasiyası

Bu modul loqoların animasiya edilməsi mövzusuna həsr olunub. Tədris müddətində "Handwriting" üsulu ilə yazı effektinin yaradılması, animasiyanın 12 əsas prinsipi və loop (dövri) animasiya məntiqi izah edilir, praktik nümunələrlə tətbiq olunur.

## 8 Personaj animasiyası

Bu modul personaj animasiyasına həsr olunub. Tədris müddətində alternativ rigləmə üsulu (Face-rig) və bütün bədənin riglənməsi öyrədilir,
personaj animasiyası prinsipləri, Explainer və Collage animasiya növləri,
"frame by frame" texnikasının modern motion dizayna tətbiqi izah olunur. Həmçinin mini layihə çərçivəsində Explainer animasiya hazırlanması və təqdimatı həyata keçirilir.

## 9 UI animasiya və 3D

Bu modul UI animasiya, "SaaS" stilli animasiyalara və 3D-ə həsr olunub. Tədris müddətində Camera və Parallax stili, Adobe After Effects proqramında 3D elementlərin istifadəsi, Blender interfeysi və sadə istifadə qaydaları izah olunur. Həmçinin Blender və After Effects-in inteqrasiyası praktik şəkildə öyrədilir.

## 10 Videoların montajı

Bu modul videoların montajına həsr olunub. Tədris müddətində Tracking və Roto Brush texnikaları öyrədilir, həmçinin Adobe Premiere Pro interfeysi və videoların montajlanması prinsipləri izah olunur.

# Hansı Bacarıqlara Sahib Olacaqsan?

- ## 2D Motion Dizayn və İllustrasiya

  Minimalistik və isometrik illustrasiyalar hazırlamağı, ikon dizaynı yaratmağı və animasiyaya uyğun vizuallar çəkməyi öyrənəcəksiniz. Illustrator və Photoshop vasitəsilə motion üçün düzgün kompozisiya qurma bacarığı əldə edəcəksiniz.

- ## Explainer və Sosial Media Videoları

  Storyboard hazırlamağı, səhnələri planlamağı və müxtəlif keçidlərdən istifadə edərək dinamik videolar yaratmağı bacaracaqsınız. Explainer, collage və sosial media üçün motion videoların hazırlanmasını öyrənəcəksiniz.

- ## Text, Loqo və UI Animasiyası

  Text reveal, lettering, stomp və logo animation texnikaları ilə müasir animasiyalar hazırlaya biləcəksiniz. UI və SaaS stilində interfeys animasiyaları yaradaraq təqdimat videoları hazırlamağı öyrənəcəksiniz.

- ## AI ilə Animasiya Hazırlığı

  Kling, Sora, Google Veo və digər AI alətlərindən istifadə edərək sıfırdan animasiya yaratmağı, AI dəstəkli vizuallar və kreativ səhnələr hazırlamağı öyrənəcəksiniz.

- ## Personaj və Morphing Animasiyası

  Personaj rigləmə, üz animasiyası və müxtəlif hərəkətlərin hazırlanması ilə character animation bacarıqları əldə edəcəksiniz. Morphing və "path to path" texnikaları ilə axıcı keçidlər yaratmağı bacaracaqsınız.

- ## Musiqi və Səs Effektləri

  Animasiyalara uyğun musiqi və səs effektləri seçməyi, ritmə uyğun motion qurmağı və səslə vizual arasında balans yaratmağı öyrənəcəksiniz. AI alətləri ilə kreativ musiqi və sound effect-lər hazırlaya biləcəksiniz.

- ## Effektlər, 3D və Video Tool-ları

  After Effects-də istifadə olunan effektlər, expressionlar və pluginlərlə işləməyi öyrənəcəksiniz. Blender ilə sadə 3D istifadəsi və inteqrasiyası, həmçinin Premiere Pro interfeysi və video edit üçün istifadə olunan əsas tool-larla tanış olacaqsınız.

# MOTION DİZAYN SAHƏSİNƏ MARAĞI OLAN VƏ KARYERASINI BU SAHƏDƏ QURMAQ İSTƏYƏN HƏR KƏS İŞTİRAK EDƏ BİLƏR.


**Zamir Murad**
2D Motion Dizayn
tələbəsinin final layihəsi

# Code Academy Tələbəsi Olmaq

Code Academy-də tədris alan hər bir tələbə sahə üzrə bilik və bacarıqlarını inkişaf etdirməklə yanaşı, eyni zamanda bu sahənin peşəkarları ilə eyni mühitdə olmaq imkanı qazanacaq, bu günə qədər 8000 nəfərdən çox tələbəsi olan Code Academy ailəsinin bir parçasına çevriləcək, yeni dünyanın mütəxəssisləri ilə davamlı ünsiyyətdə olacaq və "Open Space" ərazisindən şəxsi və peşəkar inkişafı üçün istifadə edə biləcək.

**+10.000**
ümumi tələbə sayı

**116**
pedaqoji heyət

**12 saat / 7 gün**
"Open Space"-dən istifadə



## Məzunlarımızın işlədiyi top şirkətlər

PAŞA Bank, birbank, kontakt, Azercell, Google, Bolt, azərlotereya, AZINTELECOM, vibe&wave, asan xidmət, bakcell, ABB, PAŞA Holding, amazon.com, Baku Electronics

# Tələbələrimizin Uğur Hekayələri



**Əziz Həziyev**
UX/UI & Motion Designer
**Liftoff, Canada**

Code Academy-də Motion Dizayn məzunu olduğum üçün çox məmnunam. Bura mənim üçün bir tədris müəssisəsindən daha artığıdır. Karyera və şəxsi həyatımdakı bir çox yeniliyi Akademiyaya borcluyam. Yaxşı ki, yolum buradan keçib.



**Zenfira Abdullayeva**
Motion Dizayner
**Content Agency ASC**

Mənim fikrimcə Code Academy-nin fərqli bir aurası var. Ora düşdüyüm an özümü daha həvəsli və məqsədyönlü hiss edirəm. Bu isə məni yeni işlər görməyə daha da ilhamlandırır.



**Fərhad Atakişiyev**
Senior Motion Graphic Designer
**SABAH.HUB**

İnstruktorların Akademiya təhsilini bitirdikdən sonra belə bizə daima dəstəyi, pozitif mühitin olması məni ən çox cəlb edən məqamlardan biridir. Code Academy həyatıma və karyerama rəng qatdı.



**Aftandil Əliyev**
Motion Dizayner
**Endorphin**

Code Academy mənim Motion Dizayn sahəsi üzrə ixtisaslaşmağımda böyük rol oynadı. Mən məqsədlərimdən birinə akademiya ilə çatdım. Sıra növbəti məqsədlərdədi.

**Zenfira Abdullayeva**
2D Motion Dizayn
tələbəsinin final layihəsi

in
sifari
v e













# Tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 10 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 10 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 13 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 15 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 15 həftə |

* Tədris proqramı lab saatları daxil ümumilikdə 150 saat davam edir.

Növbəti tədris hədəfin: **Qrafik Dizayn və Vizual Kommunikasiyalar**



**Aftandil Əliyev**
2D Motion Dizayn
tələbəsinin final layihəsi












/ code academy

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az